# OXUYUB ANLAMA BACARIQLARININ İNKİŞAFI

**Səfa Əbdürrəhimli,**
*Bakı Avrasiya Universitetinin magistrantı*
E-mail: ebdurrehimli@gmail.com

**Rəyçilər:** *ped. elm. ü. fəls.dok.* G. Şirəliyeva
*ped. elm. ü. fəls. dok.* F. Rzayeva

***Açar sözlər:*** *fəal təlim, şifahi və yazılı nitq, oxu növləri, oxu strategiyaları*
***Ключевые слова:*** *интерактивное обучение, устная и письменная речь, виды чтения, стратегии чтения*
***Key words:*** *active learning,oral and written speech, types of reading, reading strategies*

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini maraqlı və cəlbedici edir. Fəal (interaktiv) təlim həm məzmunun öyrənilməsinin, həm də tətbiqinin səmərəliliyini artırır və şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Bu işdə isə oxuyub anlama, dinləyib anlama vərdişlərini inkişaf etdirilməsi mühüm rol oynayır.

Azərbaycanda müasir təlim metodlarının tətbiqi layihəsi artıq 5 ildən çoxdur ki, həyata keçirilir. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində fəal (interaktiv) təlimin tətbiq edilməsi təhsil islahatının əsas məqsədlərindən biridir. Fəal (interaktiv) təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təffəkkür xüsusiyyətlərinin, yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramında göstərilən demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirməyə imkan verir. Z. Veysova (Fəal (interaktiv) təlimin tətbiqi məktəbdə şəraiti dəyişərək aşağıdakı qabiliyyətlərə malik şəxsiyyətin formalaşmasına imkan yaradır: biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək bu bilikləri yaradıcılıqla işləmək:

onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək;
öz yoldaşları ilə problemlərin həllində əməkdaşlıq etmək;
öz qabiliyyətlərini gerçəkləşdirmək üçün yollar axtarmaq və s.

Şagirdlərin özünə inamı artır, şəxsiyyətlərarası münasibətlər yaxşılaşır, məktəbə və oxumağa meyil, rəğbət çoxalır. Şəxsiyyətdə daim dəyişən şəraitə uyğunlaşma və onun həyata səmərəli keçməsinə imkan yaradan bu qabiliyyətlərin formalaşdırılması fəal (interaktiv) təlimi zəruri etmişdir. Təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradan fəal (interaktiv) təlim metodu hamı tərəfindən dərindən dərk edilməlidir. Buna görə də onlar üçün müntəzəm xüsusi treninqlər keçilməli və fəal (interaktiv) təlimin tətbiqi üçün vacib olan bilik və bacarıqlar formalaşdırılmalıdır. Bu sahədə fəaliyyət göstərən bir neçə beynəlxalq təşkilatın layihələri (UNICEF, Açıq Cəmiyyət İnstitutu, Dünya Bankı, Norveç Qaçqınlar Şurası, Britaniya Şurası və s.) vasitəsilə Respublikada fəal (interaktiv) təlimin tətbiqi üzrə işlər görülüb. (Z. Veysova. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Məşqçilər üçün metodik vəsait. UNİCEF, Bakı 2003)

Müasir dövrün tələblərindən biri şagirdlərdə oxuyub anlama vərdişlərinin formalaşmasıdır. Bildiyiniz kimi bütün kurikulum standartları şifahi nitqin inkişafına yönəlmişdir.

Çox önəmli olduğu üçün öyrənmə, oxuyub anlama, dinləyib anlama həm nəzəri, həm də praktik olaraq psixoloq və pedaqoqların xüsusi diqqətində olmuşdur. Anlama və öyrənmədəki bu tip sualların cavablarını axtarmağa yönəlikdir.

Şagirdlərdə şifahi nitqin formalaşması üçün söz –lüğət ehtiyatının zəngin olması lazımdır. Bunun üçün isə mütaliəni artırmaq lazımdır. Keçmiş nəsillərə baxdıqda indiki dövrün şagirdləri , internet və sosial şəbəkələrdən istifadə etdiyindən mütaliəni ikinci planda saxlayırlar. Bunun inkişaf etdirilməsi və təbliği isə peşəkarların üzərinə düşür.





Dünya təcrübəsindən məlum olduğu kimi, XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafında başlıca dəyər yaradıcı, özünü inkişaf etdirən şəxsiyyətidir. Təhsil prosesi uşaqda özünüinkişaf qabiliyyəti formalaşdırmalıdır. Bu da öz növbəsində aşağıda göstərilən fəallığa, dərketmə tələbatına və qabiliyyətinə əsaslanır:

Məntiqi düşünmə;
Ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma;
Müstəqil olaraq qərar çıxarma;
Ətrafda olanları yaradıcı surətdə dəyişmə;
Bilikləri müstəqil əldə etmə;
Praktik problemləri həll etmə ;
Şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma.

Görkəmli rus psixoloqu, müasir pedaqoji psixologiyanın banilərindən biri olan L.S. Vıqotskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalı, uşağın «qarşıdakı (yaxın) inkişaf zonasına» yönəlməlidir. Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşib, onları aktuallaşdırmaq üçün xüsusi təlim şəraiti yaradılmalıdır. Buna nail olmaq üçün şagirdlərə imkanlarına uyğun, lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək təklif edilməlidir. Eyni zamanda, müəllim və digər böyüklər suallar verməklə onları problemin həllinə istiqamətləndirməlidirlər. Yəni təlim uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində bilik və bacarıqları əldə etmək üzrə aşkarlanan potensial imkanlarının gerçəkləşdirilməsinə yönəlməlidir. İnkişafedici təlim ilk növbədə təfəkkürü və yaradıcılığı formalaşdırmalıdır. Kiçik yaşlarından oxu təlimi şagirdlərdə nitqin inkişafını təmin edir, dili zənginləşdirir, dəqiqləşdirir, şifahi və yazılı nitqdən şüurlu, ifadəli, düzgün istifadəni təmin edir. Şagirdlərin oxu prosesi zamanı dərk edərək şüurlu oxuması mətnlərin məzmununu, ideyasını ifadə etməyə kömək olur, təhliletmə, müqayisə aparma, obrazlara münasibət bildirmə, həyatla əlaqələndirmək, mətni dəyişdirərək yaradıcı olmaq, sərbəst, müstəqil söz demək hüququndan istifadəyə kimi gətirib çıxarır.

Mütəxəssislər hesab edirlər ki, strategiyalı oxu – düşünərək oxudur. Bununla şagirdlər və yaxud gənclər oxuyub çevik düşünmək, sual vermək, keçmiş biliyə əsaslanan yeni bilik əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikrini izah etmək, əsaslandırmaq, fakt və dəlillərlə sübut etmək, onlardan həyati situasiyalarda istifadə etmək bacarıqlarına yiyələnirlər. Bu cür oxu şagirdin oxu prosesini təşkil etməsi və idarə etməsidir. Bu zaman şagirdlər oxuduqları mətnin mənasını dərk etməyi problem, mətnin oxunuşunu isə problemi həll etmə forması kimi dəyərləndirərək məqsədə çatmaq üçün düşünülmüş şəkildə, strategiyasını qurur. Oxu prosesi bu cür təşkil edilsə, şagirdlərdə artıq oxuyub-anlama yüksək səviyyədə inkişaf etmiş olar və Azərbaycan da digər ölkələrin sırasında olar.

Bu cür oxu nəticəyönümlü oxu prosesidir. Bu proses təfəkkürün inkişaf etdirir. Artıq bu zaman isə fərziyyələr irəli sürmə, yarımçıq mətni davam etdirmə, artıq məlumatı ixtisar etmə, düşünmə, özünüqiymətləndirmə, obrazları səciyyələndirmə, ideyadan nəticəçıxarma kimi bacarıq, vərdişlər şagirddə formalaşmış olur.

Müəllimlər şagirdlərdə oxuyub – anlama vərdişlərini formalaşdırmaq üçün ilk növbədə onları oxudan əvvəl, oxu zamanı və oxu prosesindən sonra sual-cavabla yoxlamalıdır. Bu zaman əvvəlki deklorativ bilik, tədqiqat zamanı yaranan və istifadə edilən prosedural bilik, anlayışlar birgə, kontekstual bilik formalaşdırılır. Bu bilik kateqoriyalarının aktivləşməsi fəaliyyətin 3 növü üzrə özünü büruzə verir: İdraki, emosional affektiv, psixomotor.

Oxuyub mətnə əsasən nəyisə tanımaq, qaydanı izah etmək, nümunə göstərmək, istifadə etmək, təhlil etmək, müqayisə etmək, dəyərləndirmək idraki fəaliyyətə aid olmaqla; seçimini izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermək, təqdim etmək isə emosional - affektiv fəaliyyət növünə aid olur. Blum taksonomiyasının tətbiqi prosesini aktivləşdirir:

Müəyyən edir, təsvir edir, sadalayır, sıralayır, seçir;

Fərqləndirir, izah edir, nümunələr gətirir;

Dəyişir, hesablayır, istifadə edir, nümayiş etdirir;

Ayırır, hissələrə bölür, əlaqələndirir, müəyyən edir;

Yaradır, tərtib edir, yazır, nitq edir;

Müqayisə edir, qarşılaşdırır, mühakimə yürüdür;

Oxuyub –anlama vərdişlərinin inkişafında oxu modellərinin rolu böyükdür.

Elə şagird var ki, səsli oxu zamanı həvəsi artır, zehni fəaliyyəti güclənir, oxunulan mövzunu dinləyərkən marağı artır. Bu zaman tələskənliyə yol verməк olmaz, hiss, həyəcan bilinməlidir. Bu zaman sürətli oxu effektli olmur. Oxunulanın anlaşılması, onun üzərində düşünülməsi üçün səsli, intonasiyalı, ifadəli oxunulmalıdır. Səssiz oxu isə sürətli oxu üçün kömək olur. Bundan başqa səssiz oxu zamanı bir şagird digərinə mane olmadan verilən müddət ərzində oxuyur, diqqətini yayındırmır. Daha sonra isə müəllim sual-cavab etməklə müzakirə təşkil edir. Bu cür oxu prosesi dərsin sinifdə öyrənilməsinə kömək olur. Həftə ərzində bir –iki dəfə səssiz oxu təşkil etmək məsləhət görülür.

Bir çox valideyn, müəllim və şagirdlər sürətli oxu, hesab haqqında hər zaman eşitmiş, o cür kurslara uşaqlarını aparmağa meyilli olmuşlar. Nəzərinizə çatdırmaq istərdim ki, bunu hər bir müəllim öz sinif şagirdlərinə öyrədə bilər. Bu əslində qeyri adi bir üsul deyil. sadəcə sürətli oxuma üçün göz gimnastikasıdır. İlk başalayanlar üçün bu yorucu ola bilər. Amma daha sonra effekt əldə etmək olur. *(Johnson, D.W., Johnson, R.T., and Smith, K. (1991) Active Learning: Cooperation in the College Classroom, Edina, MN: Interaction Book Company).*

Oxunun bundan başqa səmərə əldə etmək üçün bir çox növü var. Məs: Xorla oxu, oxu, təqidi oxu, sual verərək oxu, müzakirə edərək oxu, rollu oxu, əzbərləmə, müqayisəli oxu, işarələyərək oxu və s. Müəllimlər savad səviyyəsini yoxlamaq üçün ***Kim?, Nə? Hara? Nə zaman?*** Sual əvəzliklərindən geniş şəkildə istifadə edə bilər. Daha sonra ***Hansı nəticəyə gəldiniz?, Nə düşünürsünüz? Nə cür ola bilər?***

Şagirdlərdə oxuyub-anlama, dinləyib anlama, danışma bacarıqlarının inkişafını yüksək səviyyədə formalaşdırmaq, bacarıqları vərdişə çevirmək üçün ən əsası düzgün, sürətli, süurlu, ifadəli oxuma vərdişi yaradılmalıdır. O zaman düzgün danışıq, lüğət ehtiyatının zənginləşdirilməsi və. s. yaranmış olar. Bu təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə doğru atılan ilk addım kimi dəyərləndirilə bilər. Şagirdlərdə ədəbi mütaliə (bədii mətn), məlumatlandırıcı mütaliə (informasiya mətnləri) üzərində iş apararaq istənilən yüksək səviyyəli nəticəni əldə etmək olar.

**Problemin aktuallığı:** Müasir dövrün tələblərindən biri olaraq düşünmə tərzini formalaşdırır, anlama vərdişləri aşılayır.

**Problemin elmi yeniliyi.** Təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə doğru atılan ilk addım kimi dəyərləndirilə bilər.

**Problemin praktik əhəmiyyəti:** Müstəqil olaraq qərar çıxarma, oxuyub-anlama və sərbəst fikir söyləmə bacarıqlarının inkişafı, şifahi nitqin səlisliyi üzrə iş təşkil edilir.

## ƏDƏBİYYAT

1. The Reading Strategies Book, By Jennifer Serravallo 1998

2. U.Mürşüdova. İngilis dilinin tədrisində aktiv və interaktiv təlim metodlarından istifadə qaydaları

3. Z. Veysova. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu: Məşqçilər üçün metodik vəsait. Bakı: UNİCEF, 2008.





**Ш. Абдуррахимли**

### РАЗВИТИЕ НАВЫКОВ ЧТЕНИЯ И ПОНИМАНИЯ

**РЕЗЮМЕ**

В современном мире важную роль играет развитие навыков чтения и понимания. Важно наличие формирования у учеников устной речи и словарного запаса. В связи с этим нужно привлечь учеников к чтению и таким образом способствовать расширению их кругозора.

**Sh. Abdurrahimly**

### THE DEVELOPMENT OF READING COMPREHENSION

**SUMMARY**

In modern century to develop the habits of reading-comprehension play an important role. It needs to enrich the word-stock in order to form pupils' oral speech. From this point of view perusing must be intensified.

**Redaksiyaya daxil olub: 19.05.2016**